# YƏHUDANIN MƏKTUBU

## GİRİŞ

*«Yəhudanın Məktubu»* özlərini imanlı adlandıran yanlış təlim yayan müəllimlərə qarşıdır. Bu qısa məktub məzmunca Peterin ikinci məktubuna yaxındır. Müəllif burada imanlıları «əmanət edilən iman uğrunda mübarizə aparmağa» (1:3) çağırır.

***Kitabın məzmunu:***

1:1-2 Salamlama
1:3-16 Səhv təlim yayanların məhkumiyyəti
1:17-25 Xəbərdarlıq və nəsihətlər

1 **1**İsa Məsihin qulu, Yaqubun qar-
daşı mən Yəhudadan Ata Allahın
sevdiyi,[a] İsa Məsih üçün qorunmuş
olan çağırılanlara salam! **2**Mərhəmət,
sülh və məhəbbət sizə bol-bol verilsin!

### *Günah və məhkumiyyət*

*(2Pet. 2:1-22)*

**3**Sevimlilər, ümumi xilasımızla bağlı
sizə yazmağa çox səy göstərirdim. Bu
arada müqəddəslərə ilk və son dəfə
əmanət edilən iman uğrunda mübarizə
aparmağa sizi həvəsləndirmək üçün
sizə yazmağı özümə borc bildim.
**4**Çünki Allahımızın lütfünü pozğunluq
üçün bəhanələrə çevirən, yeganə Pər-
vərdigarı – Rəbbimiz[b] İsa Məsihi
inkar edən bəzi allahsız adamlar
gizlicə aranıza girdilər. Onların mü-
hakiməyə uğrayacaqları çoxdan yazıl-
mışdır.
**5**Bütün bunları bildiyiniz halda sizə
xatırlatmaq istəyirəm ki, ilk və son
dəfə xalqı[c] Misirdən xilas edən Rəbb
sonra iman etməyənləri məhv etdi. **6**Öz
başçılıqlarını saxlamayan, məskunlaş-
dığı yerləri tərk edən mələkləri də
böyük qiyamət günü[d] üçün əbədi
zəncirlərlə bağlayaraq zülmətdə sax-
lamışdı. **7**Sodom, Homorra və ətraf-
dakı şəhərlər də özlərini buna bənzər
tərzdə cinsi əxlaqsızlığa və qeyri-təbii
münasibətlərə təslim etdilər; sonra bu
şəhərlər əbədi odla yandırılma cəzasını
çəkərək bir nümunə oldu.
**8**Eyni şəkildə aranıza girən bu
röyagörənlər də öz cismini murdar
edir, ağalığı rədd edir, ehtişamlı
varlıqlara şər atırlar. **9**Hətta baş mələk
Mikael də Musanın cəsədi barəsində
iblisin əleyhinə çıxıb ona şər söyləyə-
rək hökm verməyə cəsarət etmədi,

---

a **1:1** *Allahın sevdiyi* – bəzi əlyazmalarda *Allahda təqdis edilib.*
b **1:4** *Rəbbimiz* – bəzi əlyazmalarda *Allahımız və Rəbbimiz.*
c **1:5** *Bütün … xalqı* – bəzi əlyazmalarda *Bütün bunları başdan-başa bildiyiniz halda sizə xatırlatmaq istəyirəm ki, xalqı.*
d **1:6** *Böyük qiyamət günü* – hərfi tərcümədə *böyük günün mühakiməsi.*
**1:1** *Mat. 13:55; Mark 6:3* **1:5** *Çıx. 12:51; Say. 14:28-30* **1:6** *Yar. 6:1-4* **1:7** *Yar. 19:1-24*
**1:9** *Qanun. 34:6; Dan. 10:13,21; 12:1; Zək. 3:2; Vəhy 12:7*

Jos-Jd Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:24 Page 346



ancaq «Qoy Rəbb sənə qadağan
etsin!» dedi. **10**Amma bu adamlar başa
düşmədikləri hər şeyə şər atırlar. Onlar
dərrakəsiz heyvanlar kimi qeyri-iradi
surətdə nə anlayırlarsa, bunlarla məhv
olurlar. **11**Vay onların halına! Çünki
onlar Qabilin yolu ilə getdilər. Qazan-
ca görə özlərini Bilamın yalanına
düçar etdilər. Qorah kimi üsyan qal-
dırdıqları üçün həlak oldular. **12**Belə
adamlar sizin məhəbbət süfrələrinizi
ləkələyirlər. Onlar sizinlə birlikdə
yeyib-içərək qorxmadan özlərini bəs-
ləyirlər. Bunlar küləklərin tərpətdiyi
susuz buludlardır. Payızda meyvə
vermədiyi üçün kökündən qoparılmış
və iki dəfə ölmüş ağaclardır. **13**Öz
xəcalətini köpük kimi sovuran şiddətli
dəniz dalğalarıdır. Səyyar ulduzlardır
ki, onlar üçün Allah qatı qaranlığı
əbədi saxlayır.

**14**Adəmlə birlikdə yeddinci nəsil
sayılan Xanok da bu adamlara aid
peyğəmbərlik edərək demişdir: «Bu-
dur, Rəbb saysız-hesabsız müqəddəs
mələkləri ilə gəldi ki, **15**hamını müha-
kimə etsin və[a] Allaha qarşı gördükləri
allahsız işlər və allahsız günahkarların
Özünə qarşı inadkarcasına dedikləri
bütün sözlər üçün məhkum etsin».
**16**Bu adamlar deyinərək öz talelərin-
dən gileylənirlər. Onlar öz ehtirasla-
rına uyğun hərəkət edirlər. Ağızların-
dan lovğa sözlər çıxır və öz xeyirlərinə
görə yaltaqlanırlar.

### *Xəbərdarlıq və nəsihətlər*

**17**Amma siz, ey sevimlilər, Rəbbi-
miz İsa Məsihin həvarilərinin əvvəl-
cədən söylədikləri sözləri xatırlayın.
**18**Onlar sizə dedilər: «Axır zamanda
öz allahsız ehtiraslarına görə hərəkət
edən rişxəndçilər ortaya çıxacaq».
**19**Bunlar ayrılıq salan, öz təbiətinə əsir
olan, Ruha malik olmayan insan-
lardır. **20**Siz isə, sevimlilər, özünüzü ən
müqəddəs olan imanınızın təməli
üzərində inkişaf etdirin və Müqəddəs
Ruhun idarəsi ilə dua edin. **21**Rəbbi-
miz İsa Məsihin əbədi həyata aparan
mərhəmətini gözləyərək özünüzü Allah
məhəbbətində qoruyun. **22**Şübhə edən
adamlara qarşı mərhəmətli olun;[b]
**23**başqalarını oddan qaparaq xilas
edin; digərlərinə isə mərhəmət edin.[c]
Amma qorxu içində cismin ləkələdiyi
paltardan belə, çəkinin.

**24**Sizi büdrəməkdən qoruyub Öz
izzətli hüzuruna böyük sevinclə nöq-
sansız çıxarmağa qadir olan **25**Xilas-
karımız, yeganə[d] Allaha Rəbbimiz İsa
Məsih vasitəsilə əzəldən bəri, indi və
əbədi olaraq izzət, əzəmət, qüdrət və
səlahiyyət olsun! Amin.

---

a **1:15** *Və* – bəzi əlyazmalarda *və bütün allahsız adamları.*

b **1:22** *Qərarsız adamlara qarşı mərhəmətli olun* – bəzi əlyazmalarda *Dərrakəli olaraq bəzilərinə qarşı mərhəmətli olun.*

c **1:23** *Digərlərinə isə mərhəmət edin* – bəzi əlyazmalarda bu sözlər yoxdur.

d **1:25** *Yeganə* – bəzi əlyazmalarda *yeganə və müdrik* (Rom. 16:27).

**1:11** *Yar. 4:3-8; Say. 16:1-35; 22:1-35* **1:14-15** *Yar. 5:18,21-24* **1:18** *2Pet. 3:3-4*